7. OMBUDSMAN

Xülasə

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında Azərbaycan Respublikasının Ombudsman haqqında Konstitusiya Qanunuda qeyd olunur ki, ombudsmanın fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında qurulur. Lakin təcrübədə hökumət heç də həmişə Ombudsmanın hesabatlarının nəticələrinə görə hərəkət etmir. Ombudsman bir qayda olaraq vətəndaşların şikayətlərini müəyyən vaxt müddətində araşdırmaqla məşğuldur. Ombudsman keçən il mülkiyyət hüququnun pozulması ilə bağlı 2,287, prokurorluq nəzarəti ilə bağlı 690, yol polisi ilə bağlı 694 və Daxili İşlər Nazirliyinin digər strukturları ilə bağlı 266 şikayət qəbul edib. Ombudsman adətən həbsxanalara və saxlanma təcridxanalarına baş çəkir.

Cari büdcə Ombudsmanın öz əsas vəzifələrini yerinə yetirməsinə kifayət etsə də , 2011-ci ildən bu instituta həvalə edilmiş yeni vəzifələrin icrası üçün yetərli deyil.

Qanunvericiliyə əsasən Ombudsman Azərbaycan Respublikası Prezidentinin, deputatların və hakimlərin fəaliyyətini araşdıra bilməz. Bununla belə Ombudsman icra hakimiyətinə daxil olan digər strukturların fəaliyyəti ilə bağlı daxil olan şikayətləri araşdırmaq səlahiyyətindədir.

Bu institutun səlahiyyətlərinin artırılması məqsədilə əlavə tədbirlərə ehtiyac duyulur. Ümumilikdə, cəmiyyətin Ombudsman institutundan gözləntiləri hədsiz yüksəkdir və belə hesab edilir ki, hətta onun mandatı və fəaliyyət qabiliyyəti çərçivəsində olmasa da Ombudsman tərəfindən bütün problemlər aradan qaldırılacaq.

OMBUDSMAN
Ümumi qiymət 60/100

MEYAR	İNDİKATOR	QANUN	TƏCRÜBƏ
Fəaliyyət qabiliyyəti 50/100	Resurslar	-	50
	Müstəqillik	75	25
İdarəçilik 67/100	Şəffaflıq	75	50
	Hesabatlılıq	75	75
	Dürüstlük	75	50
Şəffaflıq sistemində rol 62/100	Şikayətlərin araşdırılması	50	
	Yaxşı təcrübələrin təşviqi	75	

Struktur və təşkilatlanma

Ombudsman institutu konstitusiya qanununa əsasən[1] və 2002-ci ilin 2 iyul tarixində Milli Məclisin Prezident tərəfindən irəli sürülən üç namizəd arasından ilk ombudsmanı seçməsi ilə təsis edilib. Ombudsman Konstitusiyada[2] və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş insan hüquq və azadlıqlarının pozulmasının qarşısını almaq üçün geniş mandata sahibdir. Ölkənin müxtəlif bölgələrində Ombudsmanın regional mərkəzləri yaradıla bilər və belə mərkəzlər artıq yaradılıb[3]. Ombudsman aparatının və regional mərkəzlərin strukturu, ştat cədvəli və xərclərinin smetası Ombudsman tərəfindən müəyyən edilir.

İnsan hüquqları, uşaq hüquqları, informasiya üzrə ayrı-ayrı ombudsman institutları olan bir çox ölkədən fərqli olaraq, Azərbaycanda cəmi bir Ombudsman institutu konstitusiyada təsbit edilmiş insan hüquq və azadlıqlarının həyata keçirilməsinə nəzarət edir. Vətəndaşların informasiya əldə etmə hüququnun təmin olunmasına nəzarət əvvəlcə fərqli bir institut üçün nəzərdə tutulsa da, bu səlahiyyət də sonradan ombudsman institutuna həvalə edilib. Maliyyə sektorunda istehlakçıların hüquqlarının müdafiəsi və onların problemlərinin asan həlli üçün isə ayrıca maliyyə ombudsmanı institutunun təsis edilməsi planları mövcuddur[4].

Qiymətləndirmə

Resurslar (təcrübədə): 50

Öz hədəflərinə çatmaq üçün ombudsman institutu təcrübədə nə dərəcədə qənaətbəxş resurslara sahibdir?

Ombudsmana mütəmadi olaraq dövlət büdcəsindən vəsait ayrılır və bu vəsaitlərin illik həcmi bir öncəki ildə ayrılan vəsaitlərdən heç vaxt az ola bilməz. Lakin bəzi mütəxəssislər bu vəsaitlərin qənaətbəxş olmadığını hesab edirlər[5]. Cari büdcə Ombudsmanın öz əsas vəzifələrini yerinə yetirməsinə kifayət etsə də, 2011-ci ildən bu instituta həvalə edilmiş yeni vəzifələrin icrası üçün yetərli deyil. Ombudsman haqqında konstitusiya qanununa 2011-ci ildə edilmiş əlavə və dəyişikliklərə əsasən[6] İnformasiya əldə etmək haqqında Qanunda göstərilən tələblərin icrasına nəzarət məqsədilə ombudsman institutuna əlavə səlahiyyətlər həvalə edilib[7] və bu əlavə səlahiyyətlərin yerinə yetirilməsinə nail olmaq üçün institutun

---

[1] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az
[2] Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995, www.president.az
[3] Bakıdakı mərkəzi aparatdan əlavə, Gəncə, Şəki, Lənkəran və Qubada regional mərkəzlər yaradılıb.
[4] Financial Ombudsman to be created in Azerbaijan, "Ses" Information Agency, 28 November, 2012, http://sia.az/ru/news/economy/322909
[5] Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyindən Nazir Quliyevin hesabatın müəllifi ilə müsahibəsi, 31 oktyabr 2013
[6] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 24 iyun 2011, www.e-qanun.az
[7] " İnformasiya əldə etmə haqqında" Azərbaycan Respublikasının Qanunu, 30 sentyabr 2005, www.e-qanun.az

büdcəsi artırılmalıdır[8]. Əlavə olaraq, Azərbaycanın 2009-cu ildə qoşulduğu[9] "Əlillərin hüquqları haqqında" BMT konvensiyasının[10] icrasının müstəqil monitorinqi də ombudsmana həvalə edilib, lakin institutun nə büdcəsi, nə də kadrları buna müvafiq olaraq artırılmayıb[11]. Ekspertlərin rəyinə əsasən, qurumun işçinin heyətinin sayı bu vəzifənin öhdəsindən gəlmək üçün yetərli deyil.[12] Başqa sözlə, qurum nə kifayət qədər insan resursuna nə də yetərli büdcəyə malikdir[13].

Ombudsman aparatının işçiləri kifayət qədər peşəkardır və çoxsaylı təlim proqramlarında iştirak edir, o cümlədən beynəlxalq təcrübə ilə tanış olur[14],[15]. Digər dövlət orqanlarından fərqli olaraq, ombudsman aparatında vətəndaş cəmiyyətindən gələn müstəqil insanların peşəkar karyera qurması üçün daha azad mühit mövcuddur[16] ki, bu da yəqin akademik və QHT keçmişinə sahib Ombudsman Professor Elmira Süleymanovanın[17] şəxsiyyəti ilə bağlı ola bilər.

Müstəqillik (qanunda): 75

Qanunlara görə ombudsman institutu nə dərəcədə müstəqildir?

Qanunverciliyə görə, Ombudsman müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir. 2001-ci ildə qəbul olunmuş Ombudsman haqqında konstitusiya qanunu[18] bu institutun müstəqilliyi prinsipini təsbit edir. Ombudsmanın müstəqilliyinə aşağıdakı təminatlar verilir:

- Ombudsmanın dəyişilməzliyi;
- Ombudsmanın toxunulmazlığı;
- Dövlət və ya yerli özünüidarəetmə orqanı, və ya vəzifəli şəxslər tərəfindən onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi;
- Ombudsmanın maddi və sosial təminatları;
- Fövqəladə və ya hərbi vəziyyət zamanı ombudsmanın fəaliyyətinin dayandırılmaması və ya məhdudlaşdırılmaması[19].

Eyni zamanda qanunvericilik Ombudsman vəzifəsinin tutulması üçün peşəkar meyarlar da təyin edir: Ombudsman yüksək əxlaqi keyfiyyətlərə və insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə malik olmalı, ali təhsilli olmalı və yaşı 30-dan aşağı olmamalıdır. Ombudsman Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi üç namizəd arasından Milli Məclis tərəfindən səs çoxluğu ilə seçilir. Qanun ombudsmanın siyasi fəaliyyətlə məşğul olmasını və siyasi partiya üzvü olmasını qadağan edir. Ombudsman hər hansı qeyri-hökumət təşkilatının rəhbərliyində də təmsil oluna bilməz[20].

---

[8] Ombudsman aparatının "Şəffaflıq Azərbaycan" təşkilatına 1/13293-13 nömrəli, 21 oktyabr 2013 tarixli məktubu
[9] Azərbaycan bu konvensiyanı 8 yanvar 2008-ci il tarixində imzalayıb və 28 yanvar 2009-cu il tarixində ratifikasiya edib, www.teaties.un.org
[10] http://www.un.org/disabilities/convention/conventionfull.shtml
[11] Ombudsman aparatının "Şəffaflıq Azərbaycan" təşkilatına 1/13293-13 nömrəli, 21 oktyabr 2013 tarixli məktubu
[12] Zahid Oruc-millət vəkilinin müsahibəsi, Media Forum, 3 May 2013-cü il http://www.mediaforum.az/az/2013/03/05/Zahid-Oruc-parlamenti-hökumətə-güzəştli-mövqe-020120974c00.html
[13] Azərbaycanda İnformasiya Azadlığı, İllik Hesabat, Media Hüququ İnstitutu, Yanvar 2014, http://www.mediarights.az/index.php?lngs=aze&id=526
[14] Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti haqqında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2012-ci il üzrə illik məruzəsi, www.ombudsman.gov.az
[15] OSCE assists in strengthening role of Azerbaijan's Commissioner for Human Rights (Ombudsman) to prevent torture, press release, 24 May 2010, http://www.osce.org/baku/69315
[16] Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyindən Nazir Quliyevin hesabatın müəllifi ilə müsahibəsi, 31 oktyabr 2013.
[17] Ombudsman Elmira Süleymanovanın tərcümeyi-halı, www.ombudsman.gov.az
[18] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az
[19] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az
[20]" Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında "Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az

Ombudsman Aparatında işə qəbul üçün rəqabətli və mərkəzləşdirilmiş imtahanların keçirilməməsi də vurğulanmalıdır. Qanuna əsasən[21], müvəkkilin aparatının və regional mərkəzlərinin işçilərini müvəkkil işə götürür və işdən azad edir. Bununla yanaşı dövlət qulluğu haqqında qanunvericiliyə əsasən Müvəkkilin Aparatı 1-ci kateqoriya dövlət qurumu olduğundan Ombudsman Aparatına dövlət qulluğuna qəbul müsahibə əsasında keçirilir ki, bu da müəyyən subyektivliklərin ortaya çıxma riski yaradır.

Ombudsman yeddi il müddətinə seçilir və bu vəzifəyə iki dəfədən artıq seçilə bilməz[22].

Ombudsmanın aylıq vəzifə maaşı əvvəlcə qanunla 1,800 manat[23] həcmində müəyyən edilmişdi və bu yaxınlarda 2,025 manata[24] qədər artırılıb. Dövlət sektorunda digər yüksək vəzifə maaşları ilə müqayisə etsək, bu rəqəm kifayət qədər yuxarıdır. Məsələn, Prezidentin 9 iyul 2008-ci il tarixli sərəncamına əsasən nazirlərin aylıq vəzifə maaşı 1,500 manatdır[25].

Ombudsman aparatının xərcləri dövlət büdcəsindən qarşılanır. İllik büdcə bir il əvvəlki büdcə ilə müqayisədə azaldıla bilməz[26]. Qanuna əsasən, ombudsman aparatının və regional mərkəzlərin əməkdaşları ombudsman tərəfindən təyin edilir və işdən azad edilir. Aparatın və regional mərkəzlərin əməkdaşlarının hüquqları, vəzifələri və məsuliyyətləri Əmək Məcəlləsi, dövlət qulluğu haqqında qanun[27] və digər normativ aktlarla müəyyən olunur[28].

Ombudsmana aid tələblər pozulduqda və ya ombudsman öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə Azərbaycan Respublikası Milli Məclisinin təşəbbüsü ilə və ya Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Azərbaycan Respublikası Milli Məclisi səs çoxluğu ilə Ombudsmanın səlahiyyətlərinə vaxtından əvvəl xitam verə bilər[29].

Ombudsman səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula və saxlanıla bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Ombudsman cinayət başında yaxalanarsa, onu tutan orqan bu barədə 24 saat müddətində Azərbaycan Respublikası Baş prokuroruna və Azərbaycan Respublikasının Milli Məclisinə xəbər verməlidir. Ombudsmanın toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikası Milli Məclisinin səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə xitam verilə bilər. Ombudsmanın toxunulmazlığı həmçinin onun mənzilinə, xidməti otağına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil edilir[30]. Qısacası, qanunda ombudsmanın müstəqilliyini təmin edəcək kifayət qədər müddəa mövcuddur.

Müstəqillik (təcrübədə): 25

Ombudsman institutu təcrübədə nə dərəcədə müstəqildir?

---

[21] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 18.1-ci maddə, 28 dekabr 2001, www.e-qanun.az
[22] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az
[23] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında "Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az
[24] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 27 dekabr 2013, www.e-qanun.az
[25] "Dövlət qulluqçularının əmək haqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 iyul 2008, www.president.az
[26] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az
[27] "Dövlət Qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, 21 iyul 2000, www.csc.gov.az
[28] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında "Azərbaycan Respublikasının Konstitusiya Qanunun 18-ci maddəsi, 28 dekabr 2001, www.e-qanun.az
[29] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az
[30] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az

Formal zəmanətlərə baxmayaraq, təcrübədə Ombudsmanın siyasi müdaxilələrə qarşı yaxşı sığortalanmamasına baxmayaraq həm yerli, həm də beynəlxalq ekspertlərin rəyinə görə son illərdə ombudsman insan hüquqlarının pozulması ilə bağlı münasibətini daha fəal şəkildə ortaya qoyur[31],[32].

Ombudsman Elmira Süleymanovanın sözlərinə görə bu institut yeni əldə etdiyi səlahiyyətlər çərçivəsində medianın hüquqlarının təmin olunması məqsədilə ciddi addımlar atmaqdadır[33]. Lakin informasiya əldə etmə hüququnun təminatı sahəsində ombudsman institutunun fəaliyyətinin nəticələri bu gün üçün də məhdud olaraq qalır. Buna əsas səbəb yeni səlahiyyətlərin icrası üçün maliyyə vəsaitinin kifayət etməməsidir. Onsuz da Ombudsman dəfələrlə, ən azından insan hüquqlarının kəskin pozulduğu hallarda və əhəmiyyətli işlər zamanı[34] tənqidi bəyanatlar səsləndirməyə və müraciətlər etməyə hazır olduğunu nümayiş etdirib, mütəmadi olaraq siyasi məhbuslar, həbsdəki jurnalistlər və bloggerlərlə də görüşür[35].

Lakin o da qeyd edilməlidir ki, cəmiyyətin ombudsman institutundan gözləntiləri hədsiz yüksəkdir. Cəmiyyət elə hesab edir ki, onların bütün problemləri Ombudsman tərəfindən aradan qaldırılacaq[36]. Məsələn, vətəndaşlar ombudsmandan məhkəmə baxışı dövründə yardım istəyirlər[37], amma qanunla ombudsmanın məhkəmənin işinə nəzarət və ya təsir etmək kimi bir səlahiyyəti yoxdur.

Ombudsman Elmira Süleymanova Azərbaycan bu vəzifəyə seçilmiş ilk şəxs olduğundan ölkə ombudsmanın vəzifədən getməsi təcrübəsinə də sahib deyil.

Ümumilikdə, ombudsman institutu qanun yaradıcılığı prosesində səmərəli fəaliyyət göstərir.

Şəffaflıq (qanunda): 75

Ombudsmanın fəaliyyəti və qərar qəbuletmə prosesləri haqqında ictimaiyyətin informasiya əldə etməsinə təminat verən müddəalar nə dərəcədə mövcuddur?

Qanun ombudsman institutunun şəffaflığını təmin edir və ictimaiyyətin informasiya əldə etmək hüququna təminat verir. Qanuna əsasən, cari il bitdikdən sonra 2 aydan gec olmayaraq ombudsman ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsini Milli Məclisə təqdim edir. Məruzə "Azərbaycan" qəzetində və "Azərbaycan Respublikasının qanunvericilik toplusu"nda dərc olunur. Eyni zamanda, qanun ombudsmanın müvafiq qanunvericiliyə uyğun olaraq dövlət sirri təşkil edən məlumatları mühafizə etməsini tələb edir[38]. Bundan başqa, qanuna əsasən, şikayətdə göstərilən halların araşdırılması zamanı ərizəçilərin şəxsi və ailə həyatı barədə ombudsmana məlum olmuş heç bir informasiya həmin şəxslərin razılığı olmadan açıqlana bilməz[39]. Beləliklə, mühafizəyə ehtiyacı olan şəxslərin məxfiliyi həmçinin qanunla müvafiq qaydada təmin olunur.

Şəffaflıq (təcrübədə): 50

Ombudsmanın fəaliyyəti və qərar qəbuletmə prosesləri təcrübədə nə dərəcədə şəffafdır?

---

[31] National Human Rights Commissions: Azerbaijan, by Internal Displacement Monitoring Center, http://www.internal-displacement.org/idmc/website/countries.nsf/(httpEnvelopes)/0E7EEA22271355E2C12577F10057598C?OpenDocument
[32] Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyindən Nazir Quliyevin hesabatın müəllifi ilə müsahibəsi, 31 oktyabr 2013
[33] Avropa heç vaxt Azərbacyan İnsan Hüquqları Müvəkkilinin müstəqilliyini şübhə altına almır. 26 aprel 2012-ci il, "Ses" İnformasiya Agentliyi, http://sia.az/ru/news/politics/219162
[34] Ombudsman Elmira Suleymanova Demands Investigation of Elvin Askerov's Death, Azeri Report, 17 January 2011, http://azerireport.com/index.php?option=com_content&task=view&id=2570
[35] Ombudsman Kürdəxanıda siyasi fəallarla görüşüb, Azadlıq Radiosu, 4 iyun 2013, http://www.azadliqradiosu.az/content/news/25007062.html
[36] Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyindən Nazir Quliyevin hesabatın müəllifi ilə müsahibəsi, 31 oktyabr 2013
[37] Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyindən Nazir Quliyevin hesabatın müəllifi ilə müsahibəsi 23 Aprel 2014
[38] "Dövlət sirri haqqında "Azərbaycan Respublikasının qanunu, 5 noyabr 2004; "Dövlət sirrinə aid edilən məlumatların siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 3 iyun 2005, www.president.az
[39]" Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında "Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az

Ombudsmanın illik məruzələrinin mətni ictimaiyyət üçün açıqdır. Cari il bitdikdən sonra 2 aydan gec olmayaraq ombudsman Milli Məclisə öz illik məruzəsini təqdim edir və onu rəsmi "Azərbaycan" qəzetində və "Azərbaycan Respublikasının qanunvericilik toplusunda" dərc edir. İllik məruzələri həm ombudsmanın İnternet saytından[40], həm də Beynəlxalq Ombudsmanlar İnstitutunun İnternet saytından əldə etmək olur[41]. Ümumi qaynar xətt (050 370 98 96), uşaq hüquq pozuntusu ilə bağlı ayrıca qaynar xətt (916) və vətəndaşları qəbul edən səlahiyyətli məmurlar vasitəsilə ictimaiyyətin ombudsman institutuna rahat çıxışı var[42]. Təsis olunduğu gündən 2013-cü ilin sonuna kimi ombudsman mətbuat üçün 9,500 açıqlama yayıb və təkcə 2013-cü ildə onların sayı 250 olub[43].

Hesabatlılıq (qanunda): 75

Ombudsmanın öz hərəkətlərinə görə hesabat verməsi və cavabdehlik daşımasını təmin edən hüquqi müddəalar nə dərəcədə mövcuddur?

Qanunvericilik Prezident və Milli Məclis qarşısında ombudsmanın hesabatlılığını nəzərdə tutur. Qanuna əsasən, Ombudsman ölkədə insan hüquqlarının müdafiəsi üzrə illik məruzəsini Prezidentə təqdim edir və gəldiyi nəticələri Milli Məclisin müzakirəsinə çıxarır. İllik məruzədə insan hüquqlarını pozmuş və Ombudsmanın tələblərinə riayət etməyən dövlət və bələdiyyə orqanları və ya vəzifəli şəxslər müəyyən edilir, habelə onlarla əlaqədar görülmüş tədbirlər göstərilir. Məruzə həmçinin insan hüquq və azadlıqlarının vəziyyətinin ümumi mənzərəsini təklif edir və tövsiyələr verir. Məruzə Nazirlər Kabinetinə, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və Baş Prokurora təqdim edilir. Bundan başqa, ombudsman Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına maliyyə informasiyasını təqdim edir[44].

Qeyd etmək lazımdır ki, vəzifəli şəxslərin qeyri-qanuni davranışından ombudsman aparatına şikayət yönəldən insanların müdafiəsinə zəmanət verəcək heç bir hüquqi müddəa mövcud deyil; nə də ombudsman əməkdaşlarının davranış qaydalarını pozmasına tətbiq ediləcək xüsusi müddəalar yoxdur. Ombudsmanın əməkdaşları qeyri-etik davranış, onlara həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsinə görə dövlət qulluqçularının fəaliyyətini təmzimləyən ümumi qanunvericilik qarşısında məsuliyyət daşıyırlar[45]. Halbuki, ombudsman əməkdaşları eyni zamanda həm Prezident, həm də Milli Məclis qarşısında cavabdeh olduqlarından, onlar dövlət qulluqçusu sayılmamalıdırlar və dövlət qulluqçuları haqqında qanunvericilik onlara tətbiq edilməməlidir.

Ombudsmanın məruzələri məhkəmə baxışının predmeti deyil. Digər tərəfdən, insanlar məlumatsızlıqdan yuxarı məhkəmə instansiyalarına müraciət etmək əvəzinə Ombudsmana müraciət edir və məhkəmələrə müdaxilə Ombudsmanın səlahiyyətində deyildir[46]. Bu da məhkəmələrdən narazı olan xeyli şikayətçinin həm də Ombudsmandan haqsız narazılığına səbəb olur[47].

Hesabatlılıq (təcrübədə): 75

Ombudsman təcrübədə öz hərəkətlərinə görə nə dərəcədə məsuliyyət daşıyır və hesabat verir?

Ombudsman Azərbaycanda insan hüquq və azadlıqlarının vəziyyətinə dair illik məruzə təqdim edir. Məruzədə vəzifəli şəxslər tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpası, insan hüquqlarının müdafiəsi və pozuntuların qarşısının alınması, hüquqi maarifləndirmə və elmi-analitik araşdırmaların

[40] Ombudsmanın rəsmi İnternet saytı, www.ombudsman.gov.az
[41] http://www.theioi.org/europe/azerbaijan/commissioner-for-human-rights-ombudsman
[42] Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyindən Nazir Quliyevin hesabatın müəllifi ilə müsahibəsi, 31 oktyabr 2013.
[43] Ombudsman aparatının "Şəffaflıq Azərbaycan" təşkilatına 1/13293-13 nömrəli, 21 oktyabr 2013 tarixli məktubu
[44] "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 24 iyun 2005, www.e-qanun.az
[45] "Dövlət Qulluğu haqqında "Azərbaycan Respublikasının Qanunu, 21 iyul 2000, www.csc.gov.az
[46] Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyindən Nazir Quliyevin hesabatın müəllifi ilə müsahibəsi, 31 oktyabr 2013
[47] Şəffaflıq Azərbaycan əməkdaşlarının şəxsi təcrübəsi

nəticələri, dövlət orqanları, ictimaiyyət və media ilə əməkdaşlıq, eləcə də ölkədə insan hüquq və azadlıqlarının müdafiəsini təkmilləşdirəcək digər məsələlərlə bağlı təkliflər və tövsiyələr yer alır. Milli Məclisdə müzakirələrdən sonra hesabat mediada yayımlanır. Lakin, bu məruzənin əsas aspektlərini vurğulamaq və onu ictimaiyyətin diqqətində saxlamaq üçün çox az sayda media kampaniyaları təşkil olunur. Təcrübədə, məruzələrin gəldiyi nəticələr görüşlərdə və ictimai dinləmələrdə ekspertlər və vətəndaş cəmiyyətinin üzvləri arasında müzakirə olunur[48].

Ombudsman institutu illik məruzəsi ətrafında ictimai təqdimatlar və dinləmələr təşkil etsə də, bu tədbirlər daha çox baş tutmuş fəaliyyətləri və onların nəticələrini təqdim etmək üçündür, nəinki həmin fəaliyyətlərin hədəflərinin, nəticələrinin və çatışmazlıqlarının müzakirəsi üçün. Təəssüf ki, bu, Azərbaycanda bütün dövlət qurumları üçün ümumi bir tendensiyadır.

Ombudsmanın maliyyəsi hər il Auditorlar Palatası tərəfindən audit olunur və Ombudsmanın özünün bildirdiyinə görə, bu günə qədər heç bir pozuntu aşkar olunmayıb[49].

Dürüstlük (qanunda): 75

Ombudsmanın dürüstlüyünü təmin edən hüquqi müddəalar nə dərəcədə mövcuddur?

Ombudsman aparatının əməkdaşlarından dövlət qulluqçularına tətbiq edilən ümumi qaydalara riayət etmək tələb olunur[50],[51]. Bu qanun maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsini, korrupsiyanın qarşısının alınmasını, hədiyyə alma, əmlakdan istifadə, məlumatlardan istifadə, ictimai və ya siyasi fəaliyyətlərlə əlaqədar məhdudiyyətləri müəyyən edir.[52]. Bu qanun həm də maraqlar toqquşmasının qarşısının alınmasını təmin edir. Eyni zamanda, qanuna əsasən, Ombudsman əməkdaşları əlavə gəlirlərinin mənbəyi, növü və məbləğini göstərməklə orqanın rəhbərinə öz gəlirləri və əmlak vəziyyətləri haqqında illik maliyyə hesabatlarını təqdim etməlidirlər[53].

Dürüstlük (təcrübədə): 50

Təcrübədə Ombudsmanın dürüstlüyü nə dərəcədə təmin olunub?

Müvəkkil öz fəaliyyətini Konstitusiya Qanunu ilə ona verilmiş səlahiyyətlər çərçivəsində Paris Prinsiplərinə müvafiq olaraq qurur. Müvəkkilin fəaliyyəti Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Əlaqələndirmə Komitəsinin ekspertləri tərəfindən qiymətləndirilərək Azərbaycan Ombudsman təsisatına ən yüksək status olan "A" statusu verilmişdir[54]. Ombudsman əməkdaşları tərəfindən etik davranış qaydalarının pozulmasına dair heç bir şikayət yoxdur. Ombudsman Aparatından verilən məlumata görə[55], Müvəkkilə 12 illik fəaliyyəti dövründə 100 mindən çox ərizə və şikayət ünvanlanmış və bunlardan heç biri cavabsız qalmamışdır. Müvəkkil tərəfindən fəaliyyəti dövründə insan hüquqlarının daha səmərəli təmini məqsədilə müvafiq dövlət qurumlarına 460 təklif və tövsiyə ünvanlamış, onlardan 65% icra olunmuşdur.

---

[48] Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyindən Nazir Quliyevin hesabatın müəllifi ilə müsahibəsi, 31 oktyabr 2013.
[49] Ombudsman aparatının "Şəffaflıq Azərbaycan" təşkilatına 1/13293-13 nömrəli, 21 oktyabr 2013 tarixli məktubu.
[50] " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu, 31 may 2007, www.csc.gov.az
[51] "Dövlət Qulluğu haqqında" Azərbaycan Respublikasının qanunu, 21 iyul 2000, www.csc.gov.az
[52] " Dövlət qulluqçularının etik davranış qaydaları haqqında "Azərbaycan Respublikasının Qanunu, 31 may 2007, www.csc.gov.az
[53] " Dövlət Qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, 21 iyul 2000, www.csc.gov.az
[54] Aydin Səfixanlı- İnsan Hüquqları üzrə Müvəkkili Aparatının rəhbərinin hesabatın müəllifi ilə müsahibəsi, 22 Aprel 2014-cü il
[55] Aydin Səfixanlı- İnsan Hüquqları üzrə Müvəkkili Aparatının rəhbərinin hesabatın müəllifi ilə müsahibəsi, 22 Aprel 2014-cü il

Həmçinin, vətəndaş cəmiyyətinin çoxsaylı çağırışlarına baxmayaraq[56], nə Ombudsman aparatının əməkdaşları, nə də digər vəzifəli şəxslər öz maliyyə bəyannamələrini təqdim etmirlər, çünki yüksək vəzifəli şəxslərin maliyyə hesabatı verməsini tələb edən əlavə qanunvericiliyin olmaması qanunun icrasının qarşısını alır[57].

Şikayətlərin araşdırılması: 50

Ombudsman əhalinin şikayətlərini nə dərəcədə fəal və səmərəli şəkildə araşdırır?

Ombudsman saxlanma təcridxanalarında vəziyyətin monitorinqi üçün Ədliyyə Nazirliyi və istintaq proseduralarına nəzarəti təmin etmək üçün isə Daxili İşlər Nazirliyi və Baş Prokurorluq ilə əməkdaşlıq edir[58]. Aşkarlanan pozuntular barəsində müvafiq qaydada məlumat verilir və cavab tədbirləri tövsiyə olunur[59]. Bundan başqa, qanuna müvafiq olaraq ombudsman xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda və ya öz hüquqlarını müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarını qorumaq üçün öz təşəbbüsü ilə araşdırma apara bilər[60].

Eyni zamanda, Ombudsman aparatının cəlb olunduğu uğurlu işlərə nümunələr də var. Məsələn, bir vətəndaşın Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinə şikayəti ombudsmanın həmin idarənin rəhbərinə müraciətindən sonra cavablandırılıb (14 mart 2012-ci il tarixli, 2086-12 nömrəli müraciət); və ya Diasporla İş üzrə Dövlət Komitəsinə edilən informasiya sorğusuna Ombudsmanın həmin komitənin sədrinə müraciətdən sonra cavab verilib (23 yanvar 2012-ci il tarixli, 282-12 nömrəli müraciət)[61].

Keçən il ombudsman 12,470 şikayət qəbul edib və bu, bir öncəki ildən 210 ədəd azdır. Şikayətlərin azalması ölkədə insan hüquqlarının vəziyyətinin yaxşılaşmasındanmı xəbər verir, yoxsa bu institutun problemləri həll etmə qabiliyyətinə ictimai etimadın azalmasından – bu barədə mühakimə yürütmək çətindir. Şikayətlərin təxminən 20%-i mülkiyyət hüququnun pozulması iddiaları ilə, 10%-indən çoxu isə hüquq mühafizə orqanları ilə əlaqədar olub. Şikayətlərin əksəriyyəti hüquq mühafizə orqanlarına və icra hakimiyyətinə yönləndirilib. Daxili İşlər Nazirliyinin əməkdaşları ilə əlaqədar 960 şikayətə gəlincə, 268 polis işçisi cəzalandırılıb –onların 231 nəfərinə qarşı inzibati tədbirlər görülüb, 15 nəfəri isə polis orqanlarından xaric edilib[62].

Ombudsman hökumət orqanları, QHT-lər, vətəndaş cəmiyyəti və jurnalistlər üçün birgə maarifləndirmə təlimləri keçirir, eləcə də faydalı tədris proqramları və modulları hazırlayaraq nəşr edir. Bundan əlavə, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa dair "Hüquqlarını bil və faydalan!" adlı yaddaş kitabçası hazırlanıb və regionların media nümayəndələri arasında yayılıb[63].

İnformasiyaya çıxışın təminatı sahəsində institutun nailiyyətləri daha az diqqət çəkir. İnformasiya əldə edilməsi ilə bağlı informasiya axtaranlara hüquqi yardım mexanizmi yaradılmayıb, informasiya sahiblərinə informasiya

---

[56] "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın monitorinq hesabatı, Konstitusiya Araşdırmalar fondu Şəffaflıq Azərbaycan üçün, noyabr 2013, www.transparency.az

[57] "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 24 iyun 2005, www.e-qanun.az

[58] "Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti haqqında "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2012-ci il üzrə illik məruzəsi, www.ombudsman.gov.az

[59] Saxlanma təcridxanalarında pozuntular aşkarlanıb, Azadlıq Radiosu, 7 iyun 2012, http://www.azadliqradiosu.az/content/news/24606810.html

[60] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında "Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 28 dekabr 2001, www.e-qanun.az

[61]" Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti haqqında" Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2012-ci il üzrə illik məruzəsi, www.ombudsman.gov.az

[62] Parliament Approves the Report of the Ombudsman, Turan News Agency, 5 March 2013, http://www.contact.az/docs/2013/Politics/030500030764en.htm#.UstkbtJdU7C

[63] "Azərb aycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti haqqında "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2012-ci il üzrə illik məruzəsi, www.ombudsman.gov.az

xidmətlərinin təkmilləşdirilməsi yönündə təkliflərin verilməsi istiqamətində atılan addımlar barədə isə məlumat yoxdur.[64].

Ombudsman institutu Azərbaycanda az sayda dövlət orqanlarından biridir ki, 2003-cü ildə yaradılmış Ekspertlər Şurası, eləcə də Biznes və İnsan Hüquqları İşçi Qrupu vasitəsilə vətəndaş cəmiyyəti təşkilatları ilə səmərəli əməkdaşlıq edir[65].

Yaxşı təcrübənin təşviqi: 75

Ombudsman etik davranışın standartları ilə bağlı hökumət daxilində və cəmiyyətdə maarifləndirmə işini nə dərəcədə fəal və səmərəli aparır?

Ombudsman cəmiyyət arasında və dövlət müəssisələrində etik davranışın standartları ilə bağlı mümkün qədər maarifləndirmə aparsa da, institutun səlahiyyətləri kifayət qədər məhduddur. Adətən Ombudsman Prezident yanında Əfv Məsələləri Komissiyasına müraciət edərək müəyyən uğurla əfvə nail ola bilir[66]. Ombudsman Aparatının əməkdaşları siyasi səbəblərdən həbs olunması iddia olunan insanların əksəriyyəti ilə görüşür[67], [68], [69].
İctimai informasiyaya çıxışın təmin olunmasında qurumun nailiyyəti nəzərə çarpmır. Belə ki, informasiya əldə edənlər üçün hüquqi mexanizmlər hələ işlənib hazırlanılmamışdır [70].

Həmçinin, ATƏT-ə əsasən, informasiya əldə etmək haqqında qanunun icrası ilə bağlı etibarlı hökumət statistikası və təhlilləri mövcud deyil[71].

Milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə, eyni zamanda beynəlxalq konvensiyalarla bağlı Ombudsman Milli Məclisə mütəmadi olaraq öz təkliflərini göndərir. Məsələn, Ombudsmanın təkliflərindən sonra "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" YUNESKO-nun konvensiyası, Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü protokolu, "Əlillərin hüquqları haqqında" BMT konvensiyası və onun əlavə protokolu, milli preventiv mexanizmin yaradılmasını nəzərdə tutan İşgəncələr əleyhinə konvensiyanın fakültativ protokolu ratifikasiya olunub[72]. Qurumun son qanunvericilik təşəbbüsü İnzibati həbs haqqında qanun olmuş və parlamentdə müzakirə edilmişdir[73].

Tövsiyələr:

---

[64] Freedom of Information in Azerbaijan, Annual report, by Media Rights Institute, January 2014, http://www.mediarights.az/index.php?lngs=aze&id=526
[65] Ombudsman aparatının "Şəffaflıq Azərbaycan" təşkilatına 1/13293-13 nömrəli, 21 oktyabr 2013 tarixli məktubu.
[66] Ombudsman əfvlə bağlı prezidentə müraciət edib, Azadlıq Radiosu, 2 iyun 2012, http://www.azadliqradiosu.az/content/news/24601321.html
[67] Ombudsman nümayəndələri Tural Abbaslıya baş çəkib, Azadlıq Radiosu, 13 avqust 2013, http://www.azadliqradiosu.az/content/news/25074086.html
[68] Ombudsman Elmira Süleymanova həbs olunan gənclərdən danışdı, Azadlıq Radiosu, 22 aprel 2013, http://www.azadliqradiosu.az/content/news/24965073.html
[69] Ombudsman Xədicə İsmayılova ilə bağlı Baş Prokurora muraciət edib, Azadlıq Radiosu, 3 mart 2012, http://www.azadliqradiosu.az/content/news/24517028.html
[70] Azərbaycanda İnformasiya Azadlığı, İllik Hesabat, Media Hüququ İnstitutu, Yanvar 2014, http://www.mediarights.az/index.php?lngs=aze&id=526
[71] Third Round of Monitoring: Azerbaijan, Monitoring Report, by OECD, Anti-corruption Network for Eastern Europe and Central Asia, Istanbul Anti-corruption Action Plan, Paris, 25 September 2013, www.oecd.org
[72] Activity of the Ombudsman of the Azerbaijan Republic in Ensuring Human Rights, Presentation by Aydin Safikhanli, Head of the Office of the Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan, 2011 Human Rights Dimension Implementation Meeting, Working session 3, Warsaw, 26 September to 7 October 2011, http://www.osce.org/odihr/83008
[73] İnzibati həbs haqqında qanun gündəmə gəlir, Media Forum, 21 Yanvar 2014 http://www.mediaforum.az/az/2014/01/21/İnzibati-həbs-haqqında-qanun-gündəmə-gəlir-055028337c00.html

- İnformasiya əldəetmə hüququnun təminatı sahəsində yeni səlahiyyətlərlə əlaqədar ombudsman institutunun büdcəsini və insan resurslarını artırmaq;
- İnformasiya əldə edilməsi ilə bağlı informasiya axatarnalara hüquqi yardım mexanizmlərinin yaradılması.
- Ombudsman institutuna çıxışı artırmaq və əhali arasında əhatə dairəsinin genişlənməsinə nail olmaq (məsələn, bölgələrdə şikayətçilərlə səyyar görüşlər keçirmək, televiziya və radio proqramlarında sosial çarxlar yayımlanması).
- Biznes sektorunda baş verən mübahisələrin həlli, o cümlədən məhkəmələrin yükünü azaltmaq məqsədilə maliyyə ombudsmanının yaradılması işini sürətləndirmək.